Çağdaş Azərbaycan folklorşünaslığının nəhəng simalarından olan professor Seyfəddin Rzasoy Qorqudşünaslıqla bağlı fundamental tədqiqatları ilə də tanınır. Onun "Dədə Qorqud" eposu" seriyasından 2022-ci ildə I kitab kimi "Qəhrəmanın ölüb-dirilməsi", 2024-cü ildə II kitab kimi "Dastanın Alp Aruz variantının ilk bərpa təcrübəsi" monoqrafiyaları işıq üzü görmüşdür. 2025-ci ildə də yenə "Elm və təhsil" nəşriyyatı "Dədə Qorqud" eposu" seriyası ilə növbəti 3-cü kitabını - "Şaman - qəhrəmanın xaos dünyasına yolçuluğu" kitabını nəşr etmişdir. Annotasiyada müəllifin özünün də qeyd etdiyi kimi, bu kitab alimin "Azərbaycan dastanlarında şaman - qəhrəman arxetipi ("Əsli və Kərəm" və "Dədə Qorqud")" adlı monoqrafiyasının ("Elm və təhsil", 2015) "Salur Qazanın evinin yağmalanması" boyu"nun kosmoloji struktur modeli" adlanan 3-cü fəsli əsasında hazırlanıb.

fahi ədəbi faktlar da vahid bir etnosun eyni bir xalqın düşüncə və dünyagörüşü hadisəsi olduğu üçün, hökmən bu ayrı-ayrı yaradıcılıq mərhələləri və növləri - şəkilləri arasında da eyni düşüncə modelinin, yaradıcılıq sxeminin, süjet strukturunun və s. bir-birini izləməsi tam təbii və qanunauyğun prosesdir. Məhz professor Seyfəddin Rzasoy özünün uzunmüddətli, gərgin elmi axtarışları nəticəsində haqlı olaraq belə qənaətə gəlmişdir ki, "Azərbaycan dastanları ənənəvi düşüncənin strukturunu inikas edir. Şaman da eyni ənənəvi düşüncə strukturuna malik olmuşdur. Bu cəhətdən şaman qamlamasının strukturunun Azərbaycan dastanlarının poetik strukturunda "təkrarlanması" bunları vahid düşüncə sisteminə aid edir. Demək, istər dastanlarımızın, istərsə də şamanın düşüncəsinin strukturunun əsasında eyni etnoenergetik sxemlər durur".

Məhz alimin gəldiyi bu fundamental qənaət işığında biz "Kitabi-Dədə Qorqud" dastanını ədəbi qəhrəmanı olan Qazan xanın hərəkət və davranışlarının daşıdığı mifik məna səviyyələrinin şamanların magik davranış aktları - qamlama ritualları ilə paralel sxemlər olduğunu görüb şahid oluruq. Başqa sözlə, xalqın arxaik mifik görüşlər sistemi tarixin nisbətən sonrakı inkişaf mərhələlərində xalq yaradıcılığının nəhəng ədəbi hadisəsi olan dastan janrlarında dünya görüşü hadisəsi olaraq bədii mətn dilinə transformasiya olunmuşdur. Bu günkü dünyanın gözü ilə yanaşanda, bizə ezop dili kimi sirli-müəmmalı görünən dastan mətnindəki rəmzi-metaforik - mifik görünüş və davranışları isə görkəmli mifoloq-alim Seyfəddin Rzasoy böyük ustalıqla oxuya bilmişdir. Qazan xanın xaos dünyasına səfərinin (yolçuluğunun) alt məna qatlarını sirli-sehrli mifik dünyagörüş qanunlarına söykənərək açıqlamağa müyəssər olmuşdur.

# MİFİK DÜNYADAN DASTAN DÜNYASINA BAXIŞ

Bu fakt əslində nəyi işarələyir? Hər şeydən öncə, onu isbat edir ki, kitab müəllifin 10 ildən artıq olan elmi araşdırmalarının məhsulu olaraq araya-ərsəyə gəlmişdir. Elm (araşdırmalar) isə elə tükənməz sərvətdir ki, onu işlətdikcə cilalanar, zənginləşər, çoxalar. Bu baxımdan prof. Seyfəddin Rzasoyun bu əsəri də digər əsərləri kimi ciddi elmi araşdırmaların nəticəsi olaraq özünün orijinallığı və əsaslı yenilikləri ilə seçilir.

Qeyd edim ki, müəllif kitaba yazdığı genişhəcmli giriş yazısında "Azərbaycan dastanlarında şaman - qəhrəman arxetipi" probleminin nəzəri-metodoloji əsaslarına aydınlıq gətirmiş, beləliklə, oxucuları bəhs açılacaq mövzu ilə bağlı elmi-nəzəri biliklərlə ətraflı məlumatlandırmışdır. Eyni zamanda tədqiqatın əsas məqsədinin nədən ibarət olmasına diqqəti yönəldən alim göstərir ki, "dastanların "düşüncə" strukturu ilə şaman düşüncəsinin strukturu arasında identifikasiya (eyniləşdirmə) modeli qurmaqla bu modelin funksional hərəkəti, bu hərəkəti yaradan mexanizmlər, onların quruluşu, işlənmə prinsipləri və s. haqqında düşünməkdir".

Əslində, S.Rzasoy elə bu cümləsi ilə qaldırdığı elmi problemin açılıb - çözülməsi istiqamətindəki fikir açarını təqdim edir. Yəni bu bağlı problemin - açılmamış elmi məsələnin həllini bu cür açarla açmaq mümkündür: Şaman düşüncəsinin strukturunu və dastan mətninin alt qatında gizlənən metaforik düşüncə (eyham) strukturunu paralel müstəviyə gətirmək, müqayisələr yolu ilə identifikativ kodları tutuşdurmaq! Bu, həm də başqa bir paralel tutuşdurma ilə yaxından səsləşir. Şəxsi yaradıcılıq məhsulları - yəni yazılı ədəbiyyatdakı hər hansı bir sənətkarın yazı üslubu və dəst-xətti eyni beynin - zəkanın məhsulu olduğundan, hardasa ortaq yaradıcılıq maneraları və manevrləri mütləq şəkildə özünü göstərməlidir. Xalq yaradıcılığı ənənəsi də - şi-

Hər şeydən öncə, o, Oğuztürk insanın mifoloji şüurunda dünyanın üçqatlı səviyyədə - formada təsəvvür olunması haqdakı dünya modelinə əsaslanaraq belə bir nəticəyə gəlir. Bunu alim özü belə qeyd edir ki, "kosmoloji çağ insanının (oğuzlunun) mənimsəyə bildiyi dünya onun düşüncəsində üç qatdan: "Kosmos - Aralıq dünya - Xaos"dan ibarət struktur şəklində obrazlaşır". Məhz Dünya Modelinin mifoloji-şüurdakı bu universal səviyyəsini əsas kod kimi götürən Seyfəddin Rzasoy Qazan xanın - dastan qəhrəmanının xaos dünyasına yolçuluğunu açıqlayır və bunun əslində mifoloji (eləcə də real) qanunauyğunluq olduğunu və dastanda da bu cür ifadəsini tapdığını göstərir. Mən burada mifoloji dünya modelinin real dünyada da bu cür olduğunu yuxarıda əbəs yerə qeyd etmədim. Qazan xanın xaos dünyasına səfəri, orada qaranlıq dünyada qalması və sonradan öz zoru-qəhrəmanlığı və s. hesabına yenidən qayıdıb öz hakimiyyətini bərpa etməsini - xanolma ritualını S.Rzasoy məhz bu mifoloji qanunauyğunluqla əsaslandırır. Qəribə də olsa, mən görkəmli alimin bu strukturunun eynilə müasir dünyamızda da belə olduğunu iddia edirəm. Belə ki, Azərbaycan xalqının bu dünya düzəni ilə bağlı maraqlı bir deyimi var: yaman günün ömrü az olar. Məncə, bu deyim özü də məhz dünyanın bu "üçqat quruluşlu" modelə əsaslandığına işarə edir. Adətən, bu deyimi insanlara "yaman günlərə" - kosmik düzənləri dağıdılıb xaotik duruma düşəndə təskinlikverici və həyata ümidverici münasibətin ifadəsi olaraq işlədirik. Bu nə deməkdir? Yaman günün müddəti riyazi rəqəmlə şərti şəkildə bəzən 7 gün də, 40 gün də olaraq işarələnir. Ancaq bu 7, yaxud 40 rəqəminin ilahi məqamda hansı müddətdə olması tam məlum olmadığından, bu rəqəmin yerinə "az" ifadəsi işlənilir. Yəni yaman günün - böhranın (xaosun) ömrü az olar deyilir. Bu, əslində, həyat həqiqətidir. Müasir yaşadığımız zamanlara da konkret olaraq bu deyimi müncər edə bilərik və hamımız da bunun şahidi olduğumuzu təsdiqləyərik. Belə ki, 1990-cı illərədək biz ölkəmizdə, yerimizdə, yurdumuzda rahat yaşayırdıq. Həmin dövrü azadasudə, firavan dövr olaraq həyatımızın kosmik zamanı kimi işarələyə bilərik, işğal faciəsi - qaçqınlıq - köçkünlük müsibəti bizim üçün xaotik durumla müşayiət olunan "yaman gün" oldu.

*(Davamı var)*

***Şakir ALBALIYEV***